# “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.9-cu maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın

səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın:

3.1. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanunundan irəli gələn müvafiq normativ hüquqi aktları üç ay müddətində hazırlayıb qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq etsin;

3.2. ölkədə sığorta sisteminin inkişafını, sığortaçıların ödəmə qabiliyyətinin və maliyyə sabitliyinin gücləndirilməsini, habelə sığortalıların maraqlarının qorunmasını təmin edən tədbirlər hazırlayıb həyata keçirsin;

3.3. həmin Qanunun icrasını təmin etmək məqsədi ilə öz səlahiyyətləri daxilində digər zəruri tədbirlər görsün.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 mart 2008-ci il**
**№ 735**

**Sığortaçının tələb olunan kapitalının minimum məbləğinin müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin KOLLEGİYA QƏRARI**

*№ Q-05*

**Bakı şəhəri** *«24» yanvar 2014-cü il*

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Sığortaçıların tələb olunan kapitalının minimum məbləği aşağıdakı kimi müəyyən edilsin:

1.1. Qeyri-həyat sığortası fəaliyyəti üzrə:

1.1.1. fəaliyyətdə olan sığortaçılar üçün – 5 000 000 (beş milyon) manat;

1.1.2. yeni təsis edilən sığortaçılar üçün – 5 000 000 (beş milyon) manat;

1.2. Həyat sığortası fəaliyyəti üzrə:

1.2.1. fəaliyyətdə olan sığortaçılar üçün:

1.2.1.1. 2015-ci ilin 01 yanvar tarixinədək – 5 000 000 (beş milyon) manat;

1.2.1.2. 2015-ci ilin 01 yanvar tarixindən etibarən – 6 500 000 (altı milyon beş yüz min) manat;

1.2.1.3. 2016-cı ilin 01 yanvar tarixindən etibarən – 8 000 000 (səkkiz milyon) manat;

1.2.1.4. 2017-ci ilin 01 yanvar tarixindən etibarən – 10 000 000 (on milyon) manat;

1.2.2. yeni təsis edilən sığortaçılar üçün – 10 000 000 (on milyon) manat.

1.3. Təkrarsığorta fəaliyyəti üzrə:

1.3.1. müstəsna olaraq təkrarsığorta fəaliyyəti üzrə:

1.3.1.1. fəaliyyətdə olan təkrarsığortaçılar üçün – 20 000 000 (iyirmi milyon) manat;

1.3.1.2. yeni təsis edilən təkrarsığortaçılar üçün – 20 000 000 (iyirmi milyon) manat;

1.3.2. sığortaçının təkrarsığorta fəaliyyəti üzrə:

1.3.2.1. 2014-cü ilin 01 mart tarixindən etibarən – 2 500 000 (iki milyon beş yüz min) manat;

1.3.2.2. 2015-ci ilin 01 yanvar tarixindən etibarən – 5 000 000 (beş milyon) manat.

**2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının “Sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının müəyyən edilməsi haqqında” 2008-ci 31 iyul tarixli Q-09 nömrəli və “Sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının müəyyən edilməsi haqqında Kollegiya qərarına dəyişiklik edilməsi barədə” 2010-cu il 29 noyabr tarixli Q-13 nömrəli Qərarları ləğv edilsin.

**3.** Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət

Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**maliyyə naziri** **Samir Şərifov**

**Azərbaycan Respublikasının**
**Maliyyə Nazirliyinin**
*11 may 2012-ci il tarixli Q-06 nömrəli*
*qərarı ilə təsdiq edilmişdir.*

# Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 79.3-cü maddəsinə əsasən hazırlanmışdır və sığortaçının tələb olunan kapitalının hesablanması qaydalarını, habelə bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş digər məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. hesabat tarixi – sığortaçının müvafiq hesabatının tərtib olunduğu tarix;

1.2.2. hesabat dövrü - hesabat tarixindən əvvəlki 12 ay;

1.2.3. sığorta (təkrarsığorta) müqavilələri – hesabat dövrü ərzində bağlanmış sığorta müqavilələri və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığorta müqavilələri;

1.2.4. "sığorta haqları" metodu - sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə tələb olunan

səviyyəsinin sığorta müqavilələri üzrə qəbul edilmiş öhdəliklərə əsasən hesablanması metodu;

1.2.5. "sığorta ödənişləri" metodu - sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə tələb olunan səviyyəsinin sığorta müqavilələri üzrə yerinə yetirilmiş öhdəliklərə əsasən hesablanması metodu;

1.2.6. qazanılmış məcmu sığorta haqları – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğ;

1.2.7. risk kapitalı - hesabat tarixinə qüvvədə olan həyatın ölüm halından sığortasını nəzərdə tutan (ölüm riskinə təminat verən) sığorta müqavilələri üzrə məcmu sığorta məbləğindən həmin müqavilələr üzrə sığorta ehtiyatlarının məbləği çıxıldıqdan sonra qalan məbləğ. Bu məbləğ mənfi olduqda, risk kapitalı sıfır götürülür.

1.3. Bu Qaydalarda istifadə olunan "sığortaçı" anlayışı sığortaçılarla yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 1.2-ci maddəsinə uyğun olaraq, təkrarsığortaçıları da əhatə edir.

## 2. Tələb olunan kapital

2.1. Sığortaçının tələb olunan kapitalı həyat və qeyri-həyat sığortaları üzrə ayrı-ayrılıqda müəyyən edilmiş aşağıdakı iki kəmiyyətdən böyük olanıdır:

2.1.1. tələb olunan kapitalın sığorta nəzarəti orqanı tərəfindən müəyyən edilən minimum məbləği;

2.1.2. sığortaçının bu Qaydalara əsasən hesablanmış ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi.

**3. Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi**

3.1. Sığortaçının ödəmə qabiliyyətinin qeyri-həyat sığortası (ümumi sığorta) üzrə tələb olunan səviyyəsi bu Qaydaların 5.3-cü bəndinin tələbi nəzərə alınmaqla, 4.1-ci və 5.1-ci bəndlərinə müvafiq olaraq hesablanmış məbləğlərin böyük olanıdır.

3.2. Sığortaçının ödəmə qabiliyyətinin həyat sığortası üzrə tələb olunan səviyyəsi bu Qaydaların 6.1-ci və 6.2-ci bəndlərinə müvafiq olaraq hesablanmış məbləğlərin cəminə bərabərdir.

3.3. Təkrarsığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi onun ödəmə qabiliyyətinin ümumi sığorta və həyat sığortası sahələri üzrə bu Qaydaların 3.1-ci və 3.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada ayrı-ayrılıqda hesablanan tələb olunan səviyyələrinin cəminə bərabərdir.

3.4. Ümumi sığorta sahəsi üzrə hesabat tarixinə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi həmin tarixə sığortaçının ödəmə qabiliyyətinin hesablanmış tələb olunan səviyyəsinin və hesabat tarixindən əvvəlki hesabat tarixinə ödəmə qabiliyyətinin ehtiyat əmsalı ilə düzəliş edilmiş tələb olunan səviyyəsinin böyük olanına bərabərdir.

## 4. Sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə tələb olunan səviyyəsinin "Sığorta haqları" metodu ilə hesablanması

4.1. Sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə "Sığorta haqları" metodu ilə hesablanan tələb olunan səviyyəsi aşağıdakı məbləğlərin böyük olanının 16 %-nin bu Qaydaların 7.1-ci bəndinə əsasən müəyyən edilən dürüstləşdirici əmsal ilə hasilinə bərabərdir:

4.1.1. hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqlarının məbləğindən həmin müqavilələrin bağlanması üzrə göstərilən vasitəçilik xidmətləri üçün hesablanmış komisyon muzdlar, təkrarsığortalılara hesablanmış komisyon muzdlar və sığorta (təkrarsığorta) müqavilələrinə xitam verilməsi və ya onların şərtlərinin dəyişdirilməsi nəticəsində qaytarılan sığorta (təkrarsığorta) haqları çıxıldıqdan sonra qalan məbləğ;

4.1.2. hesabat dövrü ərzində qazanılmış məcmu sığorta haqlarının məbləğindən həmin müqavilələrin bağlanması üzrə göstərilən vasitəçilik xidmətləri üçün hesablanmış komisyon muzdlar, təkrarsığortalılara hesablanmış komisyon muzdlar və sığorta (təkrarsığorta) müqavilələrinə xitam verilməsi və ya onların şərtlərinin dəyişdirilməsi nəticəsində qaytarılan sığorta (təkrarsığorta) haqları çıxıldıqdan sonra qalan məbləğ.

## 5. Sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə tələb olunan səviyyəsinin "Sığorta ödənişləri" metodu ilə hesablanması

5.1. Sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə "Sığorta ödənişləri" metodu ilə hesablanan tələb olunan səviyyəsi hesabat tarixindən əvvəlki son 3 hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərinin bu Qaydaların 5.2-ci bəndində müəyyən edilmiş qaydada hesablanan məbləğinin 1/3 hissəsinin 26 %-nin bu Qaydaların 7.1-ci bəndinə əsasən müəyyən edilən dürüstləşdirici əmsal ilə hasilinə bərabərdir.

5.2. Bu Qaydaların 5.1-ci bəndinin məqsədləri üçün, hesablanmış məcmu sığorta ödənişlərinin məbləği hesabat tarixindən əvvəlki son 3 hesabat dövrü ərzində həyata keçirilmiş sığorta ödənişləri məbləğinin hesabat tarixinə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatının məbləği qədər artırılır və alınan cəmdən hesabat tarixinə son 3 hesabat dövrünün əvvəlinə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatının məbləği çıxılır.

5.3. Hesabat tarixindən əvvəlki son 3 hesabat dövrü ərzində sığortaçı tərəfindən sığorta ödənişi verilməmişdirsə, sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin hesablanması zamanı "Sığorta ödənişləri" metodundan istifadə edilmir.

## 6. Sığortaçının ödəmə qabiliyyətinin həyat sığortası sahəsi üzrə tələb olunan səviyyəsinin hesablanması

6.1. Bu Qaydaların 3.2-ci bəndinin məqsədləri üçün, həyatın ölüm halından sığortasını nəzərdə tutan sığorta müqavilələri üzrə aşağıda göstərilən məbləğlərin cəmi götürülür:

6.1.1. müddəti 1 ilə qədər olan müqavilələr üzrə - risk kapitalı məbləğinin 0,02%-nin bu Qaydaların 7.3-cü bəndinə müvafiq olaraq hesablanmış dürüstləşdirici əmsal ilə hasili;

6.1.2. müddəti 1 ildən 3 ilə qədər olan müqavilələr üzrə - risk kapitalı məbləğinin 0,1%-nin bu Qaydaların 7.3-cü bəndinə müvafiq olaraq hesablanmış dürüstləşdirici əmsal ilə hasili;

6.1.3. müddəti 3 ildən 5 ilə qədər olan müqavilələr üzrə - risk kapitalı məbləğinin 0,15%-nin bu Qaydaların 7.3-cü bəndinə müvafiq olaraq hesablanmış dürüstləşdirici əmsal ilə hasili;

6.1.4. müddəti 5 ildən çox müqavilələr üzrə - risk kapitalı məbləğinin 0,3%-nin bu Qaydaların 7.3-cü bəndinə müvafiq olaraq hesablanmış dürüstləşdirici əmsal ilə hasili.

6.2. Bu Qaydaların 3.2-ci bəndinin məqsədləri üçün, həyatın ölüm halından sığortasını nəzərdə tutmayan sığorta müqavilələri üzrə belə müqavilələr üzrə sığorta ehtiyatları məbləğinin 4%-nin bu Qaydaların 7.4-cü bəndinə müvafiq olaraq hesablanmış dürüstləşdirici əmsal ilə hasili götürülür.

## 7. Dürüstləşdirici əmsal və ehtiyat əmsalı

7.1. Ümumi sığorta sahəsi üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin hesablanması üçün tətbiq edilən dürüstləşdirici əmsal hesabat tarixinə son 3 hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərindən bu ödənişlərdə təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan sığorta ödənişləri məbləğinin həmin dövr ərzində hesablanmış məcmu sığorta ödənişlərinin məbləğinə nisbətidir. Bu nisbət 0,5-dən kiçik olduqda, dürüstləşdirici əmsal kimi 0,5 qəbul edilir.

7.2. Hesabat tarixinə son 3 hesabat dövrü ərzində sığortaçı tərəfindən sığorta ödənişləri verilməmişdirsə, dürüstləşdirici əmsal kimi 1 qəbul edilir.

7.3. Həyat sığortası sahəsi üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin hesablanması üçün tətbiq edilən dürüstləşdirici əmsal həyatın ölüm halından sığortasını nəzərdə tutan sığorta müqavilələri üzrə risk kapitalından təkrarsığortaçıların bu müqavilələr üzrə sığorta ehtiyatlarındakı və məcmu sığorta məbləğindəki payı çıxıldıqdan sonra qalan məbləğin həmin müqavilələr üzrə risk kapitalına nisbətidir. Bu nisbət 0,5-dən kiçik olduqda, dürüstləşdirici əmsal kimi 0,5 qəbul edilir.

7.4. Həyat sığortası sahəsi üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin hesablanması üçün tətbiq edilən dürüstləşdirici əmsal həyatın ölüm halından sığortasını nəzərdə tutmayan sığorta müqavilələri üzrə hesabat dövrünün axırına məcmu sığorta ehtiyatlarından bu ehtiyatlarda təkrararsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğin həmin hesabat dövrünün axırına məcmu sığorta ehtiyatlarının məbləğinə nisbəti kimi hesablanır.

Bu nisbət 0,85-dən kiçik olarsa, onda hesablama üçün 0,85 qəbul edilir.

7.5. Ümumi sığorta sahəsi üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin hesablanması üçün tətbiq edilən ehtiyat əmsalı hesabat dövrünün axırına bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı məbləğindən bu ehtiyatda təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğin həmin hesabat dövrünün əvvəlinə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı məbləğindən bu ehtiyatda təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğə nisbətidir. Həmin nisbət 1-dən böyük olduqda, ehtiyat əmsalı 1 qəbul edilir.

## 8. Tələb olunan kapitalla bağlı hesabatlar

8.1. Tələb olunan kapitalla bağlı hesabatlar sığortaçılar tərəfindən bu Qaydaların 1-5 nömrəli əlavələrində müəyyən edilmiş müvafiq formalarda aşağıdakı tələblərə riayət olunmaqla rüblük olaraq tərtib edilməli və təqvim ilinin hər rübü başa çatdıqdan 20 gün müddətində həm kağız, həm də elektron daşıyıcılarda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim olunmalıdır:

8.1.1. hesabatlarda tələb olunan göstəricilər müvafiq hesabat formasına uyğun olaraq tam və düzgün əks etdirilməlidir;

8.1.2. hesabatlar sığortaçının İdarə Heyətinin sədri (və ya onun vəzifələrini müvəqqəti icra edən şəxs) və baş mühasibi tərəfindən imzalanmalı və həmin sığortaçının möhürü ilə təsdiq edilməlidir;

8.1.3. hesabatlarda müvafiq məbləğlər manatla ifadə olunmalıdır;

8.1.4. hesabatlarda göstərilən məbləğlər əlli qəpikdən az olduqda sıfır, əlli qəpiyə bərabər və ya ondan böyük olduqda isə bir manat kimi qeyd edilməlidir;

8.1.5. hesabatlarda hər hansı formada düzəliş edilməsinə və ya pozulmuş, yaxud tam və ya qismən oxunmayan məlumatların mövcudluğuna yol verilmir.

8.2. Bu Qaydaların 8.1-ci bəndində müəyyən edilmiş tələblərə uyğun gəlməyən hesabatlar təhlil edilmədən geri qaytarılır.

## 9. Keçid müddəası

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 128.1-ci maddəsinə uyğun olaraq, həyat və qeyri-həyat sığortası sahələrinin hər ikisi üzrə fəaliyyət göstərən sığortaçının tələb olunan kapitalı onun həyat və qeyri-həyat sığortaları üzrə ayrı-ayrılıqda hesablanmış tələb olunan kapitallarının cəminə bərabərdir.

*«Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi Qaydaları»na Əlavə № 1*

**Forma № 1.**

**Sığortaçının ödəmə qabiliyyətinin ümumi sığorta sahəsi üzrə tələb olunan səviyyəsi haqqında HESABAT (rüblük)**

Sığortaçının adı: ____________________________

Hesabat tarixi: «____»___________20____ il tarixə

**1. Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin «Sığorta haqları» metodu ilə hesablanması**

| Sıra sayı | Göstəricilərin adı | Sətrin kodu | Məbləğ (manat) |
|---|---|---|---|
| 1. | Hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqları | 1110 | |
| 2. | Hesabat dövrü ərzində sığorta (təkrarsığorta) müqavilələrinin bağlanması üzrə göstərilən vasitəçilik xidmətləri üçün hesablanmış komisyon muzdlar, təkrarsığortalılara hesablanmış komisyon muzdlar | 1111 | |
| 3. | Hesabat dövrü ərzində sığorta (təkrarsığorta) müqavilələrinə xitam verilməsi və ya onların şərtlərinin dəyişdirilməsi nəticəsində qaytarılan sığorta (təkrarsığorta) haqları | 1112 | |
| 4. | Düzəliş edilmiş məcmu sığorta haqları («1110»-«1111»-«1112») | 1113 | |
| 5. | Hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | 1114 | |
| 6. | Hesabat dövrünün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsi | 1115 | |
| 7. | Qazanılmış məcmu sığorta haqları («1110»+«1114»-«1115») | 1116 | |
| 8. | Düzəliş edilmiş qazanılmış məcmu sığorta haqları («1116»-«1111»-«1112») | 1117 | |
| 9. | Gələcək hesablamaların aparılması üçün sığorta (təkrarsığorta) müqavilələri üzrə düzəliş edilmiş məcmu sığorta haqları və ya düzəliş edilmiş qazanılmış məcmu sığorta haqları (əgər «1113» ≥ «1117», onda «1113»; əgər «1113» < «1117», onda «1117») | 1118 | |
| 10. | Aralıq yekun («1118» x 0,16) | 1119 | |
| 11. | Son 3 hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərindən bu ödənişlərdə təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan sığorta ödənişləri («1121» + «1122» + «1123») | 1120 | |
| 12. | Hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərindən bu ödənişlərdə təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan sığorta ödənişləri | 1121 | |
| 13. | Hesabat dövründən 1 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərindən bu ödənişlərdə təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan sığorta ödənişləri | 1122 | |
| 14. | Hesabat dövründən 2 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişlərindən bu ödənişlərdə təkrarsığotaçıların payı çıxıldıqdan sonra qalan sığorta ödənişləri | 1123 | |
| 15. | Son 3 hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri («1125» + «1126» + «1127») | 1124 | |
| 16. | Hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 1125 | |
| 17. | Hesabat dövründən 1 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 1126 | |

| | | | |
|---|---|---|---|
| 18. | Hesabat dövründən 2 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 1127 | |
| 19. | Dürüstləşdirici əmsal (əgər «1120» / «1124» > 0,5, onda «1120» / «1124»; əgər «1120» / «1124» ≤ 0,5, onda 0,5) | 1128 | |
| **20.** | **Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi** («1119» x «1128») | 1129 | |

**Qeyd:** Hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu sığorta haqları dedikdə, həmin müqavilələr üzrə hesablanmış sığorta (təkrarsığorta) haqlarının cəmi başa düşülür.

## 2. Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin «Sığorta ödənişləri» metodu ilə hesablanması

| Sıra sayı | Göstəricilərin adı | Sətrin kodu | Məbləğ(manat) |
|---|---|---|---|
| 1. | Son 3 hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri («2111» + «2112» + «2113») | 2110 | |
| 2. | Hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 2111 | |
| 3. | Hesabat dövründən 1 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 2112 | |
| 4. | Hesabat dövründən 2 il əvvəlki hesabat dövrü ərzində hesablanmış məcmu sığorta ödənişləri | 2113 | |
| 5. | Hesabat dövrünün sonuna bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı | 2114 | |
| 6. | Son üç hesabat dövrünün əvvəlinə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı | 2115 | |
| 7. | Gələcək hesablamaların aparılması üçün məcmu sığorta ödənişləri (1/3 x («2110» + «2114» - «2115») x 0,26) | 2116 | |
| 8. | Dürüstləşdirici əmsal (əgər «1120» / «1124» > 0,5, onda «1120» / «1124»; əgər «1120» / «1124» ≤ 0,5, onda 0,5) | 2117 | |
| **9.** | **Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi** («2116» x «2117») | 2118 | |

## 3. Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi

| Sıra sayı | Göstəricilərin adı | Sətrin kodu | Məbləğ(manat) |
|---|---|---|---|
| 1. | Hesabat tarixinə ödəmə qabiliyyətinin hesablanmış tələb olunan səviyyəsi («1129» və ya «2118»dən böyük olanı) | 3110 | |
| 2. | Əvvəlki hesabat tarixinə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi | 3111 | |
| 3. | Hesabat dövrünün sonuna bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatından bu ehtiyatda təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğ | 3112 | |
| 4. | Hesabat dövrünün əvvəlinə bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatından bu ehtiyatda təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan məbləğ | 3113 | |
| 5. | Əvvəlki hesabat tarixinə ödəmə qabiliyyətinin düzəliş edilmiş tələb olunan səviyyəsi (əgər «3112»≥«3113», onda «3111»; «3112» <«3113» onda «3111» x («3112» / «3113»)) | 3114 | |
| **6.** | **Hesabat tarixinə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi** («3110» və «3114»dən böyük olanı) | 3115 | |

**İdarə Heyətinin sədri:** ____________ ______________

imza A.S.A

M.Y.

**Baş mühasib:** ____________ ______________

imza A.S.A

*«Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi Qaydaları»na Əlavə № 2*

**Forma № 2.**

**Sığortaçının ümumi sığorta sahəsi üzrə tələb olunan kapitalı haqqında HESABAT (rüblük)**

**Sığortaçının adı:** ___________________________________

**Hesabat tarixi: «____»_____________20____ il tarixə**

| **Sıra sayı** | **Göstəricilərin adı** | **Sətrin kodu** | **Məbləğ** (manatla) |
|---|---|---|---|
| | | | |
| 1. | Hesabat tarixinə tələb olunan kapitalın minimum məbləği | 4110 | |
| 2. | Hesabat tarixinə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi («3115») | 4111 | |
| 3. | Hesabat tarixinə sığortaçının tələb olunan kapitalının məbləği («4110» və «4111»-dən böyük olanı) | 4112 | |

**İdarə Heyətinin sədri:** ____________ ______________

imza A.S.A

**Baş mühasib** ____________ ______________ **M.Y.**

imza A.S.A

*«Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi Qaydaları»na Əlavə № 3*

**Forma № 3.**

**Sığortaçının ödəmə qabiliyyətinin həyat sığortası sahəsi üzrə tələb olunan səviyyəsi haqqında HESABAT (rüblük)**

Sığortaçının adı: ______________________________________

Hesabat tarixi: «____»______________20____ il tarixə

| Sıra sayı | Göstəricilərin adı | Sətrin kodu | Məbləğ (manatla) |
|---|---|---|---|
| | | | |
| **I. Həyatın ölüm halından sığortasını nəzərdə tutan sığorta müqavilələri** | | | |
| **a) Müddəti 1 ilə qədər olan və hesabat dövrünün sonuna qüvvədə olan sığorta müqavilələri üzrə** | | | |
| 1. | Risk kapitalı («5113» - «5111») | 5110 | |
| 2. | Sığorta ehtiyatlarının məcmu məbləği | 5111 | |
| 3. | Məcmu sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 5112 | |
| 4. | Məcmu sığorta məbləği | 5113 | |
| 5. | Məcmu sığorta məbləğində təkrarsığortaçıların payı | 5114 | |
| **b) Müddəti 1 ildən 3 ilə qədər olan və hesabat dövrünün sonuna qüvvədə olan sığorta müqavilələri üzrə** | | | |
| 6. | Risk kapitalı («5118» - «5116») | 5115 | |
| 7. | Sığorta ehtiyatlarının məcmu məbləği | 5116 | |
| 8. | Məcmu sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 5117 | |
| 9. | Məcmu sığorta məbləği | 5118 | |
| 10. | Məcmu sığorta məbləğində təkrarsığortaçıların payı | 5119 | |
| **c) Müddəti 3 ildən 5 ilə qədər olan və hesabat dövrünün sonuna qüvvədə olan sığorta müqavilələri üzrə** | | | |
| 11. | Risk kapitalı («5123» - «5121») | 5120 | |
| 12. | Sığorta ehtiyatlarının məcmu məbləği | 5121 | |
| 13. | Məcmu sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 5122 | |
| 14. | Məcmu sığorta məbləği | 5123 | |
| 15. | Məcmu sığorta məbləğində təkrarsığortaçıların payı | 5124 | |
| **d) Müddəti 5 ildən çox olan və hesabat dövrünün sonuna qüvvədə olan sığorta müqavilələri üzrə** | | | |
| 16. | Risk kapitalı («5128» - «5126») | 5125 | |
| 17. | Sığorta ehtiyatlarının məcmu məbləği | 5126 | |
| 18. | Məcmu sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 5127 | |
| 19. | Məcmu sığorta məbləği | 5128 | |
| 20. | Məcmu sığorta məbləğində təkrarsığortaçıların payı | 5129 | |
| **Yekun** | | | |
| 21. | Təkrarsığortaçıların payı nəzərə alınmadan risk kapitalı («5110» + «5115» + «5120»+«5125») | 5130 | |
| 22. | Məcmu sığorta ehtiyatlarında və məcmu sığorta məbləğində təkrarsığortaçıların payı çıxıldıqdan sonra qalan risk kapitalı («5130» + «5112» - «5114» + «5117» - «5119» + «5122» - «5124»+ «5127» - «5129») | 5131 | |
| 23. | Dürüstləşdirici əmsal (əgər «5131» / «5130» > 0,5, onda «5131» / «5130»; əgər «5131» / «5130» ≤ 0,5, onda 0,5) | 5132 | |
| 24. | Həyatın ölüm halından sığortasını nəzərdə tutan sığorta müqavilələri üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi ((«5110» x 0,0002 +«5115» x 0,001 + «5120» x 0,0015 + «5125» x 0,003) x «5127»)) | 5133 | |
| **II. Həyatın ölüm halından sığortasını nəzərdə tutmayan sığorta müqavilələri** | | | |
| 1. | Hesabat dövrünün sonuna sığorta ehtiyatlarının məbləği | 5134 | |
| 2. | Sığorta ehtiyatlarının hesablama üçün məbləği («5134» x 0,04) | 5135 | |
| 3. | Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı çıxılmaqla hesabat dövrünün sonuna sığorta ehtiyatlarının məbləği | 5136 | |
| 4. | Dürüstləşdirici əmsal (əgər «5136» / «5134» > 0,85, onda «5136» / «5134»; əgər «5136» / «5134» ≤ 0,85, onda 0,85) | 5137 | |
| 5. | Həyatın ölüm halından sığortasını nəzərdə tutmayan sığorta müqavilələri üzrə ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi («5135» x «5137») | 5138 | |
| | | | |
| **Həyat sığortası müqavilələri üzrə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi** («5133» + «5138») | | 5139 | |

**İdarə Heyətinin sədri:** ____________ ______________
imza **A.S.A**

**M.Y.**

**Baş mühasib:** ____________ ______________
imza **A.S.A**

*«Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi Qaydaları»na Əlavə № 4*

**Forma № 4.**

**Sığortaçının həyat sığortası sahəsi üzrə tələb olunan kapitalı haqqında HESABAT (rüblük)**

**Sığortaçının adı: ______________________________________**

**Hesabat tarixi: «____»______________20____ il tarixə**

| **Sıra sayı** | **Göstəricilərin adı** | **Sətrin kodu** | **Məbləğ** (manatla) |
|---|---|---|---|
| 1. | Hesabat tarixinə tələb olunan kapitalın minimum məbləği | 6110 | |
| 2. | Hesabat tarixinə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi («5134») | 6111 | |
| **3.** | Hesabat tarixinə sığortaçının tələb olunan kapitalının məbləği («6110» və ya «6111», böyük olan məbləğ) | 6112 | |

**İdarə Heyətinin sədri:** ____________ ______________

imza **A.S.A**

**Baş mühasib:** ____________ ______________ **M.Y.**

imza **A.S.A**